# “Sahilsiz təzadlar” romanı-
## Azərbaycan ədəbiyyatında yeni janr



■ Aləmzər Sadıqqızı

Bu yaxınlarda biologiya üzrə fəlsəfə doktoru Sadıq Qarayevin irihəcimli “ Sahilsiz təzadlar” adlı romanı işıq üzü görüb. Romanı oxuduqdan sonra uzun müddət onun təsiri altından çıxa bilmirdim...

Odur ki, təssüratlarımı oxucularla bölüşmək qərarına gəldim.

“Sahilsiz təzadlar” romanının quruluşunu, janrını müəyyən etmək çətindir. Ona görə ki, burada zəngin fəlsəfi fikirlər, obrazların dili ilə elmi ideyalar, yeni fərziyyələr, milli və bəşəri dəyərlərin tərənnümü vəhdət halında, məharətlə bədiiləşdirilib. Müəllif oxucuya zövq vermək, əsərin maraqlı olması üçün bütün mahiyyəti iki gəncin- Əli və Nərminin ülvi məhəbbəti, iki dedektiv yönlü hadisənin üzərində qurulmuş sujet xəttində verib.



Əsər bir tayfanın arandan yaylağa köç səhnəsi ilə başlayır. Bu hadisə baharın axırlarına təsadüf edir. O zaman Əlinin on beş yaşı vardı. Əsərin sonu isə payızın əvvəlində yaylaqdan arana köçə hazırlıq səhnəsi ilə qurtarır. Bu zaman Nərmin dünyasını dəyişib, Əli isə ahıl çağlarını yaşayır. Yəni, bütün hadisələr bu iki köçün- arandan yaylağa, yeniyetməlikdən gəncliyə və yaylaqdan arana, artıq üzü payıza, qışa, eləcə də insan ömrünün qürubuna doğru olan köç prosesləri arasındakı dövrü əhatə edir.

Oxucuda roman haqqında təsəvvür olsun deyə, eləcə də sonrakı fikirlərimizi əsaslandırmaq məqsədilə əvvəlcə əsərin qısa məzmununa nəzər salaq. Buradaca qeyd etmək istəyirəm ki, “Sahilsiz təzadlar” romanının tam mahiyyətini bir məqalədə vermək qeyri-mümkündür.

Ancaq roman haqqında mülahizə yürütmək üçün qısa məzmuna nəzər salmaq, düşünürəm ki, vacibdir.

Əsər dediyimiz kimi arandan yaylağa köç səhnəsi ilə başlayır. Burada Naxçıvanın təbiəti xüsusilə, Şahbuz rayonunda olan “Zorbulaq” yaylağının təsviri, köç prosesinin detalları yaylaqdakı insanların gündəlik yaşam tərzi təsvir edilir. Qeyd edək ki, “Zorbulaq” deyəndə çoxları bu adla Batabatdakı gölün qırağındakı bulağı tanıyırlar. Digər bu adda, daha gur sulu, füsunkar bulaq “Zorbulaq” yaylağındadır. Ora Biçənək kəndindən getmək olur. Avtomobil yolu yoxdur.

“Sahilsiz təzadlar”ın dəyəri buradan, belə bir Əsrarəngiz təbiət güşəsini, “Zorbulağ”ı təsvir etmək, tanıtmaqdan başlayır. Və buradaca dünya ədəbiyyatında nadir rast gəlinən, bizim ədəbiyyatımızda da ilk dəfə olaraq bitki və heyvan ömürlərinə, talehlərinə müxtəlif aspektlərdən baxışlar yer alır.

Zorbulaq yaylağında başlanan iki gəncin eşq hekayəsi, ülvi məhəbbəti ömürlərinin axırlarına qədər davam edir. Əli özündən iki yaş böyük Nərmini sevir. Bu sevgi qarşılıqlıdır və ilahi bir məhəbbətdir, lakin ömrü boyu qovuşmayan, nakam məhəbbətdir. Nərminin Moskvada Tibb Unveristetində təhsilini davam etdirməsini Əli qəbul edə bilmir. Özü də etraf edir ki, “Nərmin təfəkkürü” feodal təfəkkürüdür, sən məndən ayrı, başqa bir şəhərdə beş il təhsil alsan, biz ailə qura bilməyəcəyik”. Nərminin isə haradasa inamı olur ki, “Əli bəlkə nə vaxtsa bu fikirdən uzaqlaşar”.

“Zorbulaq” yaylağında qeyrətli, vicdanlı, sözü bütöv şəxs kimi tanınan Cavanşirin qətli və bu hadisənin Əli tərəfindən üstünün açılması, bu proses əsnasında polis rəisi, müstəntiq ilə söhbətləri maraqlı olmaqla yanaşı, dərin fəlsəfi fikir zənginliyi ilə təsvir olunur. Burada cəmiyyət, təbiət, hüquq elmlərinin müqayisəsi, cinayətlə, günahın fərqi və s. diqqət çəkir.

Məsələlərə elmi baxışlar doğurdan da oxucunun dünyagörüşündə dərin izlər buraxır. Eyni zamanda, müəllif Əlinin, atası Qaraşın, Nərminin dili ilə rənglərin əmələ gəlməsinin elmi, fəlsəfi izahını verir. Qismət, alın yazısı, materalist, idealist baxış formalarının müqayisəsi, fərqli bir müstəvidə yeni yanaşmanın verilməsi ilə romanın əhəmiyyətini artırmaqla yanaşı oxucuda düşündürücü ovqat yaradır.

Romanda erməni vəhşilikləri, zaman-zaman xalqımıza vurulan zərbələrin mahiyyəti, yeni üslubda, dünya xalqları kontekstindən daha təsirli, qəbuledici halda verilmişdir. Nərminin Moskvada açdığı klinikaya erməni qadın Qalinanın gəlməsi, xəstə uşağının müalicəsini xahiş etməsi və aralarındakı söhbət möhtəşəm dialoqdur. Müəllif Nərminin vətənpərvər, əsl Azərbaycanlı, müsəlman xanım obrazını canlandırmaqla yanaşı, bəşəri dəyərləri özündə ehtiva edən nümunəvi, unikal bir obraz yaratmışdır.

Nərmin Somalidə, Əfqanıstanda, Yaxın Şərqdə, eləcə də dünyanın bir çox yerlərində aclıqdan, susuzluqdan, digər səbəblərdən dünyasını dəyişmiş uşaqlara dünyanın diqqətini cəlb etmək məqsədilə “Somali uşaqları və biz” mövzusunda konfrans təşkil edir. Nərminin tapşırığı ilə Əli ilə dostluq edən Polad onun konfransda iştirakını təmin edir. 20 il bir-birlərini görməyən Əli və Nərmin konfransda görüşürlər və burada hər ikisinin möhtəşəm çıxışı olur. Bu çıxışlarda bəşəriyyətin qlobal problemləri, onların səbəbləri və çıxış yolları araşdırılır. Əli yeni ictimai formasiyanın yaranması haqqında fərziyyə irəli sürür və onu əsaslandırmağa çalışır.

Konfrans ərəfəsi Əli yəhudi fizik Alberd Talla tanış olur. Onların arasında kainatın yaranması barədə elmi diskussiya maraqlı olmaqla yanaşı, Əlinin yeni “Orbitlər” nəzəriyyəsi irəli sürülməsi baxımından olduqca əhəmiyyətlidir. Düşünürəm ki, təkcə bu nəzəriyyənin dünyada tanıtdırılmasının əhəmiyyəti kitabın xarici dillərə tərcüməsinə əsas yarada bilər.

Nərminin kilinikasında erməni uşağı Sonikin zəhərlənməsi, sonra qardaşı oğlu Şahinin və onun nişanlısı Zilanın qətlə yetirilməsi böyük bir cinayyət prosesinin tərkib hissəsini təşkil edir. Nərminin bu çətin vəziyyətində onun telefon zənglərinə heç vaxt cavab verməyən Əli, kömək etməyi namus, vicdan borcu hesab edir. Əıi Moskvaya gəlib bu cinayətin də üstünü məharətlə açır. Bu proses içərisində Əlinin Nərminin bağbanı olan, sonradan qətlə yetirilən Vasyanın kor, yeniyetmə qızları Vera və Yelizaveta ilə söhbətləri dünya ədəbiyyatında unikal dialoqlardan biridir.

Mübağiləsiz demək olar ki, “Sahilsiz təzadlar” romanı öz mahiyyəti, tərbiyyəvi əhəmiyyəti, orjinallığı, milli və bəşəri ideyaların təbliği baxımından dünya ədəbiyyatının şah əsərlərindən birinə çevriləçəkdir.

Əsərə ön söz yazan görkəmli alimimiz akademik İsa Həbibbəyli haqlı olaraq “Sahilsiz təzadlar” romanının tərbiyəvi əhəmiyyətinin, yekun qənaətlərinin özünəməxsus limanı vardır” deyir. Romana rəy verən hörmətli alimimiz Telman Əliyev, əsəri “Ordubadinin “Qılınc və qələm” əsəri ilə müqayisə edir.

Bir Azərbaycan vətəndaşı, Yazıcılar Birliyinin üzvü kimi tam səmimiyyətim ilə demək istəyirəm ki, “Sahilsiz təzadlar” romanı xarici dillərə mütləq tərcümə olunmalıdır. Bu həm Azərbaycan ədəbiyyatını xaricə tanıtmaq, həm də həqiqətlərimizi dünyaya çatdırmaq baxımdan olduqca əhəmiyyətlidir. İnanırıq ki, bu roman nüfuzlu beynəlxalq mükafatlar Azərbaycana gətirmək gücündədir. İlk öncə Respublikamızda “Sahilsiz təzadlar” romanına mükafatların verilməsini, onun real qiymətləndirilməsini arzu edərdim. Onu da deyim ki, “Sahilsiz təzadlar” romanının tərcüməsi və respubilkamızda mükafatlandırılması tövsiyələri, arzuları kitabın 10 dekabr 2014-cü ildə yazıcılar birliyində keçirilən möhtəşəm təqdimat mərasimində millət vəkili və alimlər, yazıçılar tərəfindən də səsləndirilib.

Müəllifə gələcək yaradıcılığında uğurlar arzu edirik.